**Bəsti Bərdəli**

## Güləsər (Təcnis)

Hakim oldum, düz ürəyə, düz ələ,
Nəqqaş oldum, şah əsərim güləsər.
Dərd üzülə, müşkül işin düzələ,
Gözlər gülə, ağıl gülə, gülə sər.

Atam mənə ad qoymuşdu Güləsər,
Diləyirdi gülə ağıl, gülə sər.
Dedim ata, gül üşüyər, gül əsər,
Dedi qızım al yaylığı gülə sər.

Nişan aldı, yenə atdı, oxu yar,
Oxu dərdli, oxu yarsız, oxu yar.
Bülbül fəğan edər qəmli oxuyar,
Külək bağda haray salar, gül əsər.

Mən atmaram hədəfimə oxu yan,
Nadan atar, oxu əyri, oxu yan,
*Bərdəli*'ni sevən, duyan, oxuyan,
Alın sizə bir şah əsər, gül əsər.